**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

## № 70

**Bakı şəhəri, 20 aprel 2010-cu il**

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xərclər smetası, ştat cədvəli və işçilərinin aylıq vəzifə maaşları haqqında**

"Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xərclər smetası bu qərarın 1 nömrəli əlavəsinə uyğun müəyyən edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun ştat cədvəli və işçilərinin aylıq vəzifə maaşları bu qərarın 2 nömrəli əlavəsinə uyğun müəyyən edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun saxlanılması xərcləri dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Elm" köməkçi bölməsinin iqtisadi təsnifatının "Sair xərclər" paraqrafında bu məqsəd üçün nəzərdə tutulmuş vəsait dairəsində təmin edilsin.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **A.Rasi-zadə**